## İnformasiya texnologiyalarında irəliləyiş

*Ümumdünya İqtisadi Forumunun hesabatında respublikamızın mövqeyi 9 pillə yaxşılaşıb*

Ümumdünya İqtisadi Forumu dünya ölkələrində informasiya texnologiyalarının inkişafına dair yeni hesabatını («Global Information Technology Report 2012») açıqlayıb. 142 ölkənin İKT sektorunun vəziyyətinin təhlil olunduğu hesabatda Azərbaycanın mövqeyi ötən illə müqayisədə 9 pillə yüksəlib: respublikamız təşkilatın reytinq cədvəlində 3,9 balla 61-ci yerdə qərarlaşıb. Forumun ekspertləri Azərbaycan hökumətinin İKT-nin inkişafı ilə bağlı son illər geniş islahatlar keçirdiyini qeyd edərək, bu sahədə xeyli müsbət nəticələrə nail olduğu fikrindədirlər. Forumun mütəxəssisləri Azərbaycanda dövlət və özəl strukturlarda elektron xidmətlərin tətbiq olunması ilə bağlı maksimum səviyyədə işlərin görüldüyünü diqqətə çatdırırlar. Hazırda MDB regionunda informasiya-kommunikasiya texnologiyalarının inkişaf göstəricilərinə və müasir elektron xidmətlərin tətbiqi səviyyəsinə görə ilk üçlükdə (Rusiya, Azərbaycan, Qazaxıstan) yer alan ölkəmiz innovasiyalara hazırlıq, iqtisadi təsir, əhalinin məlumatlılığı, İKT xidmətlərindən istifadə və digər indikatorlar üzrə mövcud dünya göstəricilərinə yaxındır və elə sahələr də var ki, inkişaf etmiş ölkələrin göstəricilərini qabaqlayır. Son 8 ildə Azərbaycanın İKT sahəsinin orta illik irəliləyiş göstəricisi 25-32% təşkil edir.

Ümumdünya İqtisadi Forumu hesabatda «Azərbaycan: Sürətlə dəyişən dünyada böyük iddialar» başlıqlı bölmədə respublikamızın İKT sahəsində genişhəcmli layihələr həyata keçirdiyinə, qarşıya ən son innovasiyaların tətbiqi məqsədini qoymasına xüsusi yer ayırıb.

Azərbaycan İnternet Forumunun prezidenti, Multimedia Mərkəzinin rəhbəri Osman Gündüzün sözlərinə görə, milli informasiya və kommunikasiya infrastrukturunun mütərəqqi texnologiyalar əsasında müasirləşdirilməsi, informasiya cəmiyyətinin inkişaf etdirilməsi hökumətin həyata keçirdiyi siyasətin əsas istiqamətlərindən biridir. Bu məqsədlə son illər respublikamızda informasiya texnologiyalarının tətbiqi ilə bağlı çox mühüm addımlar atılmaqdadır. Dövlət informasiyaya və biliklərə əsaslanan rəqabətədavamlı iqtisadiyyatın qurulmasını, cəmiyyətin informasiya məhsulları və xidmətlərinə tələbatının dolğun ödənilməsi məqsədilə İKT infrastrukturuna və xidmətlərinə çıxışın təmin olunmasını başlıca prioritetlərdən hesab edir. O.Gündüzün fikrincə, son illər internet xidmətlərinin tariflərinin aşağı salınması, yeni layihələrin həyata keçirilməsi, dövlət qurumlarında İKT-nin tətbiqinin genişləndirilməsi, Prezident İlham Əliyevin 23 may 2011-ci il tarixli «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» fərmanının icrasının təmin edilməsi ilə bağlı ciddi tədbirlərin görülməsi respublikamızın beynəlxalq hesabatlarda mövqeyinin yaxşılaşmasında mühüm rol oynayıb. Hazırkı hesabat da bunun real nümunəsi sayıla bilər. Son illər beynəlxalq təşkilatlar tərəfindən İKT ilə bağlı müsbət qiymətləndirmələr onu göstərir ki, Azərbaycan hökuməti qeyd olunan sahədə inkişafa təkan verən mühüm addımlar atıb, xüsusilə də «Elektron hökumət»in formalaşdırılması ilə bağlı çevik, sistemli işlər görür.

Mütəxəssisin fikrincə, respublika hökuməti dövlət idarəçiliyinin müasir prinsiplər əsasında həyata keçirilməsi məqsədilə informasiya və kommunikasiya texnologiyalarından istifadənin tətbiqi sahəsində əhəmiyyətli tədbirləri daha da sürətləndirib. Dövlət qurumlarına, fiziki və hüquqi şəxslərə elektron xidmətlər göstərilməsi üçün güclü hüquqi baza yaradılıb və geniş infrastruktur mövcuddur. Hazırda informasiya texnologiyalarının mühüm komponentlərindən biri kimi dövlət strukturlarında elektron xidmətlər şəbəkəsinin yaradılmasını xüsusi qeyd etmək olar. Onun sözlərinə görə, elektron xidmətlər dövlət orqanı ilə vətəndaş arasında qarşılıqlı münasibətlərin səmərəliliyinin və keyfiyyətinin artırılmasına, baş verə biləcək bütün neqativ halların qarşısının alınmasına, dövlət idarəetmə sisteminin ən müasir standartlar səviyyəsinə yüksəldilməsinə imkan yaradır.

Vergilər Nazirliyi tərəfindən elektron xidmətlərin tətbiqinin genişləndirilməsi ilə bağlı həyata keçirilən davamlı tədbirlərin əhəmiyyətindən danışan Osman Gündüzün sözlərinə görə, nazirlik hazırda İKT xidmətlərindən istifadə edən aparıcı dövlət qurumu sayılır. Qurum həm elektron xidmət göstərilməsinə hazırlıq vəziyyətinə, həm də elektron xidmətlərin keyfiyyətinə görə mühüm üstünlüyə və yaxşı təcrübəyə malikdir. Bu gün vergi orqanlarının istifadəçilər üçün tətbiq etdiyi elektron xidmətlər həm vətəndaşlarla operativ əlaqələrin yaradılmasına, həm də vergi xidməti strukturları arasında informasiya mübadiləsini, məlumatların işlənməsini, bəyannamələrin qəbulunu və

qeydiyyatını sürətləndirməyə və avtomatlaşdırmağa, sənədlərin sistemdaxili dövriyyəsini tam şəkildə elektron varianta keçirməyə imkan verir. Nazirlik bütün xidmətləri uzun müddətdir ki, interaktiv formada internet üzərindən həyata keçirir və son vaxtlar sosial şəbəkələrə inteqrasiyanı genişləndirməklə çevik dövlət orqanı olduğunu təsdiq edib, bu istiqamətdə digər dövlət qurumları üçün nümunə ola biləcək sistem yaradıb.

Elbrus CƏFƏRLİ